PAPER DETAILS

TITLE: Azerbaycan-Türk Dilinin Lügat Terkibinin Zenginlesmesinde Morfoloji ve Sentaktik Usulün Rolü

AUTHORS: Elbrus VELIYEV

PAGES: 39-45

ORIGINAL PDF URL: https://dergipark.org.tr/tr/download/article-file/2467402

AZƏRBAYCAN-TÜRK DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ MORFOLOJİ VƏ SİNTAKTİK ÜSULUN ROLU

IN THE ENRICHMENT OF THE DICTIONARY OF AZERBAIJANI-TURKISH LANGUAGE THE ROLE OF MORPHOLOGY AND SYNTAX METHOD

ELBRUS VELİYEV
Doç. Dr., Nahçıvan Devlet Üniversitesi, Tarih-Filoloji Fakültesi, Azerbaycan Dili ve Edebiyatı Bölümü
Assoc. Prof. Dr., Nahçıvan Devlet University, Faculty of History-Philology, Department of Azerbaijan Lenguage and Literature
elbrusveliyev79@gmail.com

Türk Dili ve Edebiyatı Bölümü Dergisi-Journal of Turkish Language and Literature
TÜRKDED-4, Haziran- June 2022 Rize

Makale Türü-*Article Types* : Araştırma Makalesi-Research Article
Geliş Tarihi-*Received Date* : 05.06.2022
Kabul Tarihi-*Accepted Date* : 26.06.2022
Sayfa-*Pages*: 39-45

Recep Tayyip Erdoğan Üniversitesi
Fen-Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi

AZƏRBAYCAN-TÜRK DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ MORFOLOJİ VƏ SİNTAKTİK ÜSULUN ROLU

***Doç. Dr. Elbrus VELİYEV*[1]**

Özet

Söz yaradıcılığı prosesi dilimizdə əsas semantik kateqoriyalardan biridir. Dilin leksik sisteminin inkişafında müstəsna əhəmiyyətə malik, dilin spesifik xüsusiyyətlərini özündə əks etdirən, Azəzbaycan-Türk dilini zənginləşdirən bu proses həm də dilimizin möhtəşəmliyi, elastikliyi, çevikliyi və ifadəliliyini sübut edən amil¬lərdən biridir. Söz yaradıcılığının səciyyəvi xüsusiyyəti sözdə yeni bir mənanın yaradılmasıdır ki, bu proses eyni zamanda sözləri yeni şəraitə uyğun seçib işlətməyə imkan verir. Odur ki, söz yaradıcılığı prosesi dilin ən zəruri tədqiqat sahələrindən biri hesab edilir. Söz yaradıcılığınininkişafı qədimdən mövcuddur və dilimizin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayan bu proses iki istiqamətdə - morfoloji və sintaktik yolla özünü göstərir:

Morfoloji yolla söz yaradıcılığı prosesi əsasən leksik şəkilçilərin vasitəsilə izlənilir. Azərbaycan dilinin milli səciyyəsini qoruyub, əsrlərin dərinliklərindən dövrümüzə qədər gətirib çıxaran dil vahidlərindən biri də məhz şəkilçilərdir. Xatırlatmaq lazımdır ki, Azərbaycan dilinin söz yaratmaq vasitələri, əsasən müxtəlif məqsədlərlə sözlərə əlavə edilən və onlara yeni-yeni mənalar aşılayan sözdüzəldici şəkilçilərdir. XIV-XVIəsr abidələrinin dili üzərində aparılan tədqiqatlar göstərir ki, bu abidələrin dilində yaranmış yeni sözlər ya bu şəkilçilər vasitəsilə, ya da sintaktik yolla düzəlmişdir.

Sintaktik yolla söz yardıcılığı isə əsasən ad+ad, ad+feil, feil+feil zərf+feil modeli əsasında təzahür edir.

Tədqiqatlar göstərir ki, Azərbaycan-türk ədəbi dilində söz yaradıcılığı prosesi tarixi kateqoriyadır. Orta əsrlər ədəbi nümunələrinin dili göstərir ki, XIV-XVI əsrlərdə artıq Azərbaycan dilinin normativ qrammatikası mövcud idi. Bununla əlaqədar olaraq, dilin ədəbi dil kimi sabitləşməsində norma ilə yanaşı, ədəbi ənənənin və janrların da böyük rolunu nəzərə almaq lazımdır. Əsasən poetik əsərlərdən ibarət olan XIV-XVI əsrlərin yazılı abidələrinin dilinin sonrakı dövrlərlə və müasir dillə müqayisəsində ümumi və fərqli cəhətləri tədqiq etmək bir qədər çətindir, çünki poetik dildə söz yaradıcılığı prosesi müasir dildə söz yaratma prosesindən çox fərqlənir. Məhz bu fərqləri ortaya çıxarmaq üçün də, dilin tarixi qrammatik quruluşunu əks etdirən XIV-XVI əsrlərə aid yazılı abidələrin dilində söz yaradıcılılğı prosesini izləmək olduqca zəruri bir məsələdir.

Anahtar Kelimeler: Azərbaycan-Türk dili, morfoloji, sintaktik, ədəbi dil, söz yaradıcılığı.

THE ROLE OF MORPHOLOGICAL AND SYNTACTIC METHOD IN ENRICHING THE VOCABULARY OF THE AZERBAIJANI-TURKISH LANGUAGE

Abstract

The process of word formation is one of the main semantic categories in our language.This process, which is of exceptional importance in the development of the lexical system of the language, reflects the specific features of the language and enriches the Azerbaijani-Turkish language, is also one of the factors proving the grandeur, flexibility, agility and expressiveness of our languages.

[1]Nahçıvan Devlet Üniversitesi, Tarih-Filoloji Fakültesi, Azerbaycan, elbrusveliyev79@gmail.com

The development of word formation has existed since ancient times, and this process, which plays an important role in enriching the vocabulary of our language, manifests itself in two directions - morphologically and syntactically: Morphologically, the process of word formation is followed mainly by lexical suffixes. Suffixes are one of the language units that preserves the national character of the Azerbaijani language and brings it from the depths of centuries to the present day.It should be noted that the means of word formation in the Azerbaijani language are mainly word-forming suffixes that are added to words for various purposes and instill new meanings in them. Research on the language of the monuments of the XIV-XVI centuries shows that the new words formed in the language of these monuments were formed either through these suffixes or syntactically. Syntactically, word-formation is mainly based on the noun + noun, noun + verb, verb + verb adverb + verb.Researchesshow that the process of word formation in the Azerbaijani-Turkish literary language is a historical category. The language of medieval literary examples shows that in the XIV-XVI centuries the normative grammar of the Azerbaijani language already existed. In this regard, along with the norm, it is necessary to take into account the great role of literary tradition and genres in the stabilization of language as a literary language.It is difficult to study the general and different features of the language of the written monuments of the XIV-XVI centuries, which consist mainly of poetic works, in comparison with later periods and modern language, because the process of word formation in poetic language is very different from word formation in modern language. In order to reveal these differences, it is necessary to follow the process of word formation in the language of written monuments of the XIV-XVI centuries, which reflect the historical and grammatical structure of the language.

Key Words: Azerbaijani-Turkish lenguage, morphological, syntactic, literary lenguage, word formation.

Giriş

Dünya poeziyasının korifeyi, dahi Azərbaycan şairi Nizami Gəncəvi türk xalqalrını elə bir nəhəng ağaca bənzətmişdir ki, onu nə güclü tufan, yel, nə daşqın, nə kərgadan, nə də fil yıxa bilər.Bəli, rişəsi, kökü çox-çox dərinliklərdə olan bu ağacın bir budağı Azərbaycan, bir qolu Türkiyə, bir qolu Türkmən, bir qolu Qaqauzdur. Bu xalqların dini də bir, dili də bir, qanı da birdi, canı da.

Sübut olunmuşdur ki, Azərbaycan dili Türk dilləri ailəsinə daxil olub Oğuz qrupunun Oğuz-Səlcuq yarımqrupuna daxildir. Bu qrupda olan Türk, Türkmən, Qaqauz xalqı bir-biri ilə əsasən tərcüməsiz danışır. Xüsusən Türkiyədə yaşayan Türk xalqları azərbaycanlılarla tam tərcüməsiz qonuşur, anlaşırlar.

Azərbaycan və Türkiyə Türkcəsində Ortaq Morfoloji Xüsusiyyətlər:

Aparılmış tədqiqatlarda, araşdırmalarda sübuta yetirilmişdir ki, Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsinin fonetik, leksik xüsusiyyətlərində qismən fərq olsa da, ancaq qrammatik quruluşunda, xüsusən qrammatikanın mühüm bir qolu olan morfoloji quruluşunda da cüzi fərqlər olsa da, əsasən eyniyyatlıq təşkil edir. Məsələn, bəzi leksik vahidlərdə üst-üstə düşməyən məqamlar: kürək – sırt, çiyin – omuz, çörək (əppək) - əkmək), sərhəd – sınır, maşın – araba, təyyarə - uçaq və s.

Hər iki dildə işlənən bəzi şəkilçi morfemlərə diqqət yetirək: Azərbaycan dilində indiki zamanda feillər –ır4 və şəxs şəkilçiləri qəbul etməklə təsriflənir – dəyişir. Türkiyə türkcəsində

ancaq bir formada – yor və şəxs şəkilçisi ilə dəyişir. Məsələn: gəl-ir-əm, gəl-ir-sən, gəlir... Türk dilin də gəliyor-um, gəli-yor-sun, gəliyor və s. Əlbəttə ki, belə nümunələr azlıq təşkil edir.

Məqsədimiz iki qardaş ölkənin dil xüsusiyyətlərini müqayisə etmək, tədqiqata cəlb etmək deyil. Çünki bu barədə çox yazılıb, çox deyilib. Məqsədimiz bu kiçik yazıda – məqalədə Azərbaycan dili və türk dilinin lüğət tərkibinin zənginləşməsində morfoloji və sintaktik yolla sözyaratma məqamlarına toxunmaqdıq.

Bəllidir ki, dilin lüğət tərkibi gündən-günə, aydan-aya, ildən-ilə zənginləşir, saflaşır, bəzən də korlanır. Bu zənginləşmə bir neçə yolla: lüksik, lüksik-semantik, morfoloji, sintaktik və digər üsullarla formalaşır. Qeyd edək ki, hər hansı bir dilin lüğət tərkibinin zənginləşməsi, saflaşması daxili imkanlar sayəsində - əsasən morfoloji və sintaktik üsulla yaranan yeni sözlər vasitəsi ilə özünü göstərir. Amma sözlər bir tərəfdən dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edirsə, digər tərəfdən milliliyə xələl gətirir. Bu da təbiidir. Çünki qloballaşma şəraitində, elm və texnikanın çox sürətlə inkişaf etdiyi bir dövrdə alınmaların zəruriliyi danılmaz olur. Alınma sözlərin əksəriyyəti leksik vahidlər olur. Onların əksəriyyəti olduğu kimi, bir qismi isə fonetik, yaxud, morfoloji dəyişikliyə uğradılaraq dildə işlədilir. Məsələn, sport – sport, ekonomika – ekonomi, arxiv – arşiv, terror – terror və s.

Bu da maraqlıdır ki, bəzi alınmalar Azərbaycan dilində olduğu kimi işlənir (təyyarə, maşın, xaric, daxil, izn, nazir, tələbə, müəllim və s.). Ancaq çox haqlı olaraq bu tipli sözləri türk dilində olduğu kimi deyil, milli sözlərlə, türkmənşəli sözlərlə əvəz edilərək işlədilir. Təyyarə-uçaq, maşın-araba, xaric-dış, daxil-iç, izn-izacə, nazir-bakan, tələbə-öyrənci, müəllim-öyrətmən və s. İnanırıq və ümid edirik ki, yaxın gələcəkdə Azərbaycan dilində də bu və ya digər alınmalar türkmənşəli sözlərlə əvəz ediləcək.

Həm Azərbaycan dilində, həm də türk dilində morfoloji və sintaktik yolla söz yaratma əsasən eyniyyatlıq təşkil edir. Yəni morfoloji yolla söz yaradıcılığı birmənalı olaraq söz kökünə leksik morfemlər – sözdüzəldici şəkilçilər artırmaqla yeni leksik vahidlər yaranır. Hər iki dildə eyniyyatlıq təşkil edən leksik şəkilçilər bunlardır: -çı4, -lıq, -ça2, -dakı2, -la2, -sız4, -laş2, -l4, -çasına2, -laq2, –al2, -ar2, –ır4, -ın4, -ili4, -ış4, -ıl4 və s. Hər iki dildə sözyaratmağa xidmət edən bircür yazılan alınma leksik şəkilçilər də vardır (-daş, -saz, -baz, -xana, -ban və s.). Hər iki dildə bu şəkilçilər qeyri-məhsuldar şəkilçilər adlanır.

Həm Azərbaycan, həm də türk dilində leksik şəkilçilərlə düzələn və yazıda – orfoqrafiyada əsasən üst-üsə düşən orfoepiyada isə bəzən fərqlənən düzəltmə spzlərə diqqət yetirək:

Azərbaycan dilində	Türk dilində
İsimlərdə: Balıq-çı, yazı-çı, meşə-çi, yalan-çı, sir-daş, vətən-daş, daş-lıq, məzar-lıq, buz-laq, tuta-caq, çörək-çi-lik	Balı(k)-cı, yazı-çı, orman-çı, yalan-çı, sır-daş, yurd-daş, baş-lıq, mezar-lıq, buz-laq, tuta-caq, ekmek-çi-lik və s.
Sifətlərdə:Göstəriş-li, duz-lu, yağ-sız, çirk-li, kəpək-li, haq-lı, haq-sız, tarix-i, qədim-i, meşə-dəki, ev-dəki, baş-sız, səs-siz, kəsi-ci, qır-ıcı, küt-ləvi, yuxu-suz və s.	gösteriş-li, tuz-lu, yağ-sız, camur-lu, kepek-li, hak-lı, kafa-sız, hak-sız, tari-xi, qedim-i, orman-daki, odada-kı, ses-siz, kes-ici, qır-ıcı, küt-levi, uyku-suz ve s.
Feillərdə: Dara-n-maq, yuyu-n-maq, görüş-mək, qucaq-laş-maq, aç-ıl-maq, mələ-ş-mək, göz-lə-mək, üz-ül-mək, qop-ar-t-maq,	Tara-n-maq, yıka-n-maq, bul-uş-maq, kucaq-la-ş-maq, aç-ıl-maq, mele-ş-mek, bek-le-mek, üz-ül-mek, qop-art-maq, tuz-la-maq,

duz-la-maq, düz-üş-mək, üşü-t-mək, döyüş-mək, tutul-maq, yaxın-laş-maq, çok-al-maq, yer-i-ş-mək, sevda-laş-maq və s.	üşü-t-mek, döy-üş-mek, tut-uq-la-maq, yak-laş-maq, çox-al-maq, yürü-ş-mek, söv-də-leş-mek, ve s.
Zərflərdə:İgid-cəsinə, qəhrəman-casına, zor-la, yaz-da, bahar-da, türk-cə, içəri, sevin-cək, əvvəl-dən, ötəri, sağ-a, sol-a, qəflə-t-ən, təkrar-ən sevin-cək, bir-dən, yaxşı-ca və s.	yiğid-cesine, kahraman-casına, zorla, bahar-da, türk-çe, İngiliz-cə, dış-arı, iç-eri, sevin-cek, önce-den, ötürü, sağ-a, sol-a, tekrar-en, aynen, iyice ve s.

İndi isə hər iki dildə sintaktik yolla, yəni mürəkkəb sözlərin yaranma üsullarına diqqət yetirək.Bildiyimiz kimi, mürəkkəb sözlər, əsasən iki yolla: analitik və sintaktik üsulla yaranır. Yəni biz vurğu altında deyilərək müxtəlif çalarlarla bitişik yazılanlar: Azərbaycan dilində - itburnu, ayaqqqabı, kək otu, üzüyola, çoxsaylı, beşmərtəbəli, ağzıbütöv, birbaşa və s. Türk dilində: soykırım, üçqatlı, qoyungözlü, yerebakar, yılbaşı, günebakan, ayakkabı, bardakverən, sukabı, qukuşu su aykırı və s.

Hər iki dildə defislə yazılan mürəkkəb sözlər də istənilən qədərdir, lakin türk dilində defis işarəsi işlədilmir. Azərbaycan dilində yorğan-döşək, dost-düşmən, gecə-gündüz, axşam-sabah, qaça-qaça, ağlı-qaralı, gülə-gülə, tez-tez, bir-bir, ata-baba, yurd-yuva, qovun-qarpız və s.

Türk dilində: yorqan-düşek, dede-baba, defter-kalem, altın-gümüş, çeker-çekmez, qalxıb-durmak, yüz-yüze, omuz-omuza, sokak-sokak, koşa-koşa, karşı-karşıya, kolay-kolay və s. Biz bilərəkdən defislə yazmışıq.

Oğuz Qrupu Daxil Olan Türk Dillərində Mürəkkəb Adların Yaranması Yolları:

Oğuz qrupu daxil olan türk dillərinin əksəriyyətində xüsusən Azərbaycan və türk dillərində mürəkkəb adların bir qismi də -ba, -bə, na ünsürü ilə yaranır və bitişik yazılır. Məsələn, vurhavur, gəlhagəl, tuthatut, yehaye, üzbəüz, dalbadal və s. (azərbaycan), koşhakoş, tuthatut, günbegün, elbeel, yılbayıl, saatbasaat və s.

Maraqlıdır ki, Azərbaycan və türk dillərində mürəkkəb feillər ümumi qaydadan kənara çıxaraq ancaq ayrı yazılır. Hər iki dildə mürəkkəb feillər aşağıdakı üsullarla yaranır.

1.Ol, et, elə - köməkçi-yardımçı feillər ilə; təşkil etmək, əl eləmək, hazır olmaq,razı olmaq, işarə etmək və s. (azərbaycan); kontrol etmək, hiss etmək, takdır etmək, bahs eləmək, taş olmaq, aptal olmaq, uyuz olmaq, yardım etmək və s. (türk).

2.Əsas tərəfi məcazi mənada işlənən feillərin köməkliyi ilə: başa düşmək, qulaq asmaq, hövsələdən çıxmaq, üşə düşmək, gözdən salmaq, fikir vermək, eşqə düşmək, dərd çəkmək, ələ salmaq, hoqqa çıxarmaq, üz vurmaq, dərdə salmaq və s. (Azərbaycan). Yürəyini sıxmaq, pilan tökmek, köyden çıxmaq, kendine gelmek, baş vurmaq, iş yapmaq, çıldırıb durmaq, çekib getmek, karar vermek, yoluna koymaq, tuzağa salmaq, yanlış yapmaq, boş vermek, kalb vermek, kalb sındırmaq, sırt dönmek, omuz omuza vermek və s. (Türk).

3.Hər iki dildə qalmaq (kalmak) və qılmaq (kılmak) yarımmüstəqil feillərlə mürəkkəb feillər yarana bilir.

Azərbaycan dilində: məətəl qalmaq, bekar qalmaq, yetim qalmaq, darda qalmaq, namaz qılmaq, əncam qılmaq, çarə qılmaq və s.

Türk dilində: uykusuz kalmak, tek-tenha kalmak, encam kılmak, namaz kılmak, darda kalmak, ekmeksiz kalmak və s.

Araşdırma zamanı türk dilində ver feili həm dialektlərdə, həm də ədəbi dildə maraqlı məqamlar yaratmaqla mürəkkəb feil yaradır. məsələn: bakı vermək, veri vermek, yapı ver, çıxı ver ve s.

4.Tərz birləşmələri ilə yaranan mürəkkəb feillər. Onlar sabit söz birləşməsi funksiyasını daşısa da, Azərbaycan dilində defislə yazılır və onları cümlədə işlədndə ayırmaq olmur, eyni bir suala cavab olur. Bu istisnadır ki, həmin feillər defislə yazılır, ancaq türk dilində əksər vaxt ayrı, bəzən də bitişik yazılır. Bitişik yazılmağı da türk dilində istisnadır.

Nümunələrə nəzər yetirək:

Azərbaycan dilində: yanıb-sönmək, ötüb-qurtarmaq, ölüb-dirilmək, sözalıb sönmək, susub durmaq, uğunub getmək, yanıb yandırmaq, çapıb talamaq, vurub tutmaq, yandırıb yaxmaq, düzüb qoşmaq, atılıb düşmək və s.

Türk dilində: çekib gitmek, gitara, yanıb yakılmaq, yandırıb yakmak, koşub kaçmak, varıb gitmek və s.

5.Azərbaycan dilində feilin arzu şəklinin –a2 şəkilçisinin omonim olan –a2 şəkilçisi var ki, o qoşulduğu feildən sonra bilmək feili gəlir (qaç-a bilmək, gül-ə bilmək) bu, feilin bacarıq tərzini yaradır. Son iki ildə ümumorta məktəbin Azərbaycan dili dərsliklərində feilin təsriflənən formalarının altı sadə şəklinə iki şəkildə əlavə olunub, bunlardan biri bacarıq şəkli, digəri davamiyyət şəkli adlandırılıb. Halbuki, 1954-cü və 1961-ci ildə nəşr olunmuş ali məktəblər üçün "Azərbaycan dilinin qrammatikası" dərsliklərində bunlardan birincisi bacarıq, ikincisi davamiyyət tərzi adı altında verilib (azərbaycan dilinin qrammatikası, I cild, EA nəşri, Bakı, 1961, səh. 197).

Necə adlandırılırsa adlandırılsın bunlar (yaza bilmək, oxuya bilmək, baxa bilmək, qaça bilmək və s.) hər iki dildə mürəkkəb feillər sırasına aiddir. Çünki bu tipli feillərin birinci tərəfi (yaza, okuya, baka) şəxslənmir və heç bir leksik və qrammatik şəkilçi qəbul etmir, ikinci tərəf isə bilmək feili zamana, şəxsə və kəmiyyətə görə dəyişir və feilin digər sadə şəkillərinin şəkilçilərini qəbul edə bilir. Və cümlədə eyni bir suala cavab verir.

Azərbaycan dilində:	**Türk dilində:**
Mən oxuya bilirəm	Okuya biliyorum
Sən oxuya bilirsən	Okuya biliyorsun
O oxuya bilir	Okuya biliyor
Biz oxuya bilirik	Okuya biliyoruz
Siz oxuya bilirsiniz	Okuya biliyorsunuz
Onlar oxuya bilirlər	Okuya biliyorlar
Yaxud:	
Qaça bildim	Koşa bildim
Qaça bildin	Koşa bildin
Qaça bidi	Koşa bildi
Qaça bildik	Koşa bildik
Qaça bildiniz	Koşa bildiniz
Qaça bildilər	Koşa bildiler.

Bəzi mənbələrdə bunlar mürəkkəb feil kimi adlandırılmasa da, reallığa əsaslanaraq bunları mürəkkəb feil kimi qəbul etmək daha doğrudur. Türk dilində bu, birmənalı olaraq qəbul olunub. Fakt odur ki, mürəkkəb, yaxud tərkibi feillərə ayrılmır, təklikdə müstəqil suala cavab vermir və ayrılıqda cümlə üzvü ola bilmir. Məsələn. Oxuya bilmirəm – okuya bilmiyorum. Nə edirəm – okuya bilmirem və s.

Sonuç

Nəticə etibarı ilə qeyd edə bilərik ki, bu iki qardaş xalqın dili bir, sevinci bir olduğu kimi, dilimizin qrammatik quruluşu da, azacıq fərqlə eynidir. Bu da vurğulanmalıdır ki, qrammatik kateqoriyalar necə adlandırılırsa adlandırılsın, eyni məna kəsb edir. Məsələn, feil – şəxssiz feil, yəni zərf necə adlanırsa adlansın, hərəkətə bağlıdır.

Bu kiçik araşdırmadan məlum oldu ki, hər iki dildə morfoloji və sintaktik yolla yaranan yeni leksemlər lüğət tərkibinin zənginləşməsinə xidmət edir və morfoloji və sintsktik yolla yaranma yolları demək olar ki, az fərqlə üst-üstə düşür. Bu da soy kökümüzün bir olduğunu bir daha sübut edən vacib amillərdəndir.

Kaynakça

Akar, Ali (2005), Türk Dili Tarihi, Ankara: Ötüken Yay.
Azərbaycan Dilinin Qrammatikası I hissə (1961), Bakü.
Bağırov, Q (1984), Azərbaycan Dilində Feillərin Leksik-Semantik İnkişafı, Bakü.
Banguoğlu, Tahsin (2015), Türkçenin Grameri, Ankara: Türk Dil Kurumu Yay.
Əl-Əndəlusi, Əşirəddin Əbu Həyyat (1992), Kitab əl-İdrak-li lisan əl ətrak, (Çev. Z.Bünyadov), Bakü.
Gökyay, Orhan Şaik (2007), Dedem Korkut Kitabı, İstanbul: Kabalcı Yay.
Məmmədov, N (1971), Azərbaycan Dilçiliyinin Nəzəri Əsasları, Bakü.
Məmmədov, N. ve Axundov, A (1996), Dilçiliyə Giriş, Bakü.
Mirzayev, H (1990), Azerbaycan Dilinin Tarixi Qrammatikası, Bakü.
Naskali, Emine G. ve Duranlı, Muvaffak (1999), Altayca-Türkçe Sözlük, Ankara: Türk Dil Kurumu Yay.
Şiraliyev, M ve Abdullayev, M (1986), Oğuz Qrupu Dillərinin Müqayisəli Qrammatikası II hissə (morfologiya), Bakü.

Extended Abstract

The process of word formation is one of the main semantic categories in our language.This process, which is of exceptional importance in the development of the lexical system of the language, reflects the specific features of the language and enriches the Azerbaijani-Turkish language, is also one of the factors proving the grandeur, flexibility, agility and expressiveness of our language.A characteristic feature of word formation is the creation of a new meaning in the word, which also allows to select and use words in accordance with the new conditions.Therefore, the process of word formation is considered one of the most important areas of research in language. The development of word formation has existed since ancient times, and this process, which plays an important role in enriching the vocabulary of our language, manifests itself in two directions - morphologically and syntactically.

Morphologically, the process of word formation is followed mainly by lexical suffixes. Suffixes are one of the language units that preserves the national character of the Azerbaijani language and brings it from the depths of centuries to the present day.It should be noted that the means of word formation in the Azerbaijani language are mainly word-forming suffixes that are added to words for various purposes and instill new meanings in them. Research on the language of the monuments of the XIV-XVI centuries shows that the new words formed in the language of these monuments were formed either through these suffixes or syntactically.

Syntactically, word-formation is mainly based on the noun + noun, noun + verb, verb + verb adverb + verb.Researchesshow that the process of word formation in the Azerbaijani-Turkish literary language is a historical category. The language of medieval literary examples shows that in the XIV-XVI centuries the normative grammar of the Azerbaijani language already existed. In this regard, along with the norm, it is necessary to take into account the great role of literary tradition and genres in the stabilization of language as a literary language.It is difficult to study the general and different features of the language of the written monuments of the XIV-XVI centuries, which consist mainly of poetic works, in comparison with later periods and modern language, because the process of word formation in poetic language is very different from word formation in modern language. In order to reveal these differences, it is necessary to follow the process of word formation in the language of written monuments of the XIV-XVI centuries, which reflect the historical and grammatical structure of the language.

As a result, we can say that the language of these two fraternal peoples is the same, the joy is the same, and the grammatical structure of our language is the same with a slight difference. It should also be emphasized that the grammatical categories have the same meaning as they are called. For example, a verb is an impersonal verb, that is, whatever the envelope is called, depends on the action.

This small study found that new morphological and syntactic lexemes in both languages serve to enrich the vocabulary, and that morphological and syntactic paths overlap with little difference. This is one of the important factors that once again proves that our lineage is one.